**EMİN ƏLİRZAYEV**
*alirzayev@gmail.com*
*Azərbaycan Dövlət İqtisad Universiteti*

# SOSİAL PROQNOZLAŞDIRMA KONTEKSTİNDƏ SOSİAL MUDAFİƏ SİSTEMİNƏ KONSEPTUAL YANAŞMA (AZƏRBAYCAN RESPUBLİKASI NÜMUNƏSİNDƏ)

*Məqalədə Azərbaycan Respublikasında sosial münasibətlər mühitində sosial müdafiənin təkmilləşdirilməsi mexanizmi olaraq, sosial müdafiə sahəsinin təşkili və idarə olunması müstəvisində iqtisadi proqnozlaşdırmanın konseptual əsaslarının və aktual problemlərinin təhlili aparılır, sosial müdafiə infrastrukturunun hazırkı inkişafı mərhələsində proqnozlaşdırılmanın aparılması ilə bağlı başlıca problemlər və prioritet istiqamətlər barədə nəzəri əsaslandırılmış mülahizələr irəli sürülür, aktual hesab edilən həll mexanizmləri barədə əsaslandırılmış təkliflər verilir.*

***Tədqiqatın məqsədi*** *- sosial müdafiə sisteminin inkişafı və əhalinin sosial müdafiəsinin keyfiyyətcə yüksəldilməsi məqsədilə sosial müdafiədə idarəetmənin əsasını təşkil edən maliyyə resurs təminatının yaxşılaşdırılması istiqamətində mühüm mexanizm kimi, proqnozlaşdırılmanın nəzəri-iqtisadi bazasının gücləndirilməsinə töhfə verilməsidir.*

***Tətbiqi əhəmiyyəti.*** *Məqalə prioritet hesab edilən istiqamətlər üzrə maliyyə resurslarından səmərəli istifadə edilməsinə təsir göstərə bilən əsas amillərin müəyyən edilməsilə elmi tədqiqat, eləcə də idarəetmə səviyyəsində perspektivə hesablanmış daha mütərəqqi qərarların verilməsi üçün konseptual baxışın formalaşdırılmasına yönəldilmişdir.*

***İşin tədqiqat obyektini*** *- son hədəfi Azərbaycanda əhalinin sosial rifahının yüksəldilməsi olan sosial müdafiə sisteminin tənzimlənməsi təşkil edir.*

***Tədqiqat metodları.*** *Təhlillərin aparılmasında seçilən problemin məzmunundan irəli gəlməklə empirik-nəzəri dərketmə və araşdırma, analiz və sintez, induktiv və deduktiv yanaşma, müqayisə, nəzəri modelləşdirmə, abstraktlaşdırma metodlarına əsaslanılmış, digər müxtəlif mənbələr üzrə informasiyalardan istifadə edilmişdir.*

***Tədqiqatın orijinallığı və elmi yeniliyi.*** *Azərbaycanda formalaşmış müasir milli sosial müdafiə modeli bazasında proqnozlaşdırılmanın aktual problemlərinin araşdırılması və bu istiqamətdə konkret təkliflərin verilməsidir.*

***Tədqiqat işinin nəticələri.*** *İş çərçivəsində təhlil edilən problemlər və irəli sürülən təkliflər perspektivə hesablanmış sosial-iqtisadi cəhətdən effektiv qərarların verilməsi üçün konseptual baxışın möhkəmləndirilməsinə xidmət edir.*

***Açar sozlər:*** *sosial müdafiə, sosial təminat, büdcə sistemi, büdcə proqnozlaşdırılması, büdcədənkənar fondlar*

## Giriş

Elmi istiqamət olaraq iqtisadiyyatda proqnozlaşdırmaya ümumi şəkildə müxtəlif sosial-iqtisadi mahiyyətli göstəricilərin statistikası və dəyişməsi üzərində riyazi metodların tətbiqi müstəvisində növbəti dövrlər üçün iqtisadi parametrlər üzrə göstəricilərin dəyişməsinin qabaqcadan qiymətləndirilməsi kimi baxılır.

İqtisadiyyatın sosial münasibətlərə əsaslanan spesifik sahəsi olaraq sosial müdafiədə proqnozlaşdırılmanın aparılması bir çox hallarda iqtisadi sferadan kənarda baş verən hadisə və tendensiyaların nəzərə alınmasını və çoxcəhətli dəyərləndirilmələr tələb etməklə sosial proqnozlaşdırmanın komplikativ sahəsi olaraq xarakerizə olunur.

Makroiqtisadi proqnozlaşdırılma obyekti olan sosial müdafiə sistemində sahələr üzrə proqnoz göstəricilərinin müəyyən edilməsi üçün ilk növbədə həmin sahələrin iqtisadi tənzimlənilməsinin əsaslanıldığı mövcud qanunvericilik çərçivəsi ilə müəyyən edilən şərtlər və həmin müddəaların sahə üzrə sosial-iqtisadi proseslərin növbəti tendensiyasının ehtimal edilməsinə aparan alqoritmik əlaqələri nəzərə alınır.

Sosial müdafiənin tədqiqat obyektinə alınan sahəsinin spesifikasına uyğun olaraq, bu zaman proqnozlaşdırılma üçün nəzərə alınan elementlər, o cümlədən hesablama üçün verilənlər (dəyişənlər) sahə üzrə icra göstəricilərinin ötən yaxın illərdəki dinamikasına əsaslanmaqla, təkcə sahəyə təsirli olan makroiqtisadi göstəricilərin proqnozunun da nəzərə alınmasını deyil, eyni zamanda müvafiq demoqrafik dəyişmələrin, bəzi hallarda isə siyasi-idarəetmə və normativ amillərin də təsirlərinin nəzərə alınmasını tələb edir ki, bu da sosial müdafiədə proqnozlaşdırılmanının fərqli (spesifik) xüsusiyyətlərini formalaşdırır.

Sosial müdafiənin çoxşaxəli struktur sahələrinin xüsusiyyətlərilə bilavasitə əlaqəli olaraq sahəyə təsir edən amillərdə və onların təsirində zamanla dəyişmələr baş verdiyi üçün sosial mühitin tənzimlənilməsi, xüsusən sosial rifahın təmin olunması baxımından əhalinin sosial və maddi ehtiyaclarının, sosial müdafiə sistemində çatışmazlıqların müəyyənləşdirilməsi və uyğun həll yollarının işlənilməsi üçün sosial müdafiənin də proqnozlaşdırılması davamlı zərurət olaraq ortaya çıxır.

Bu baxımdan sosial müdafiədə proqnozlaşdırılma onun təşkili və səmərəli idarə olunmasının baza mexanizmlərindən hesab edilməklə, davamlı elmi-tədqiqat zərurəti əhəmiyyət kəsb edir.

**Azərbaycan Respublikasında sosial müdafiə sahəsinin proqnozlaşdırılmasının konseptual əsasları.**

Sosial müdafiənin özünün ümumnəzəri, həmçinin Azərbaycanda aktual problemlərini az tədqiq olunan mövzulardan hesab etmək lazımdır. Sahə üzrə yerli alimlər səviyyəsində iqtisadi əsasların, o cümlədən proqnozlaşdırılma məsələləri ilə bağlı, qeyd etmək lazımdır ki, əsasən, prof. Ə.Əlirzayev və digərləri tərəfindən elmi-nəzəri bazanın genişləndirilməsi istiqamətində çox mühüm tədqiqatlar ərsəyə gətirilsə belə, həmin tədqiqatlardan sonra ötən əhəmiyyətli müddət baxımından da sosial müdafiənin spesifik sosial və digər faktorların təsiri mühitində daimi təkmilləşdirilmə və formalaşan ətraf şərtlərə transformasiyası nəzərə alınaraq, sfera olaraq mövcud şəraitdə onun aktuallıq kəsb edən məsələlərinin elmi araşdırılması və sahə üzrə təkmilləşdirilməsi mümkün olan bütün istiqamətlərdə innovativ və optimal həll metodlarının və mexanizmlərinin işlənilməsi mütəmadi zərurət əhəmiyyəti kəsb etməkdədir.

Sosial proqnozlaşdırma daha çox hər bir ölkədə sosial mühitin tənzimlənməsi mexanizmlərindən biri kimi sosial mahiyyətli əhali ehtiyaclarının, cəmiyyətdə baş verən proseslərin və gözlənilən tendensiyaların prospektiv olaraq müəyyələnləşdirilməsi məqsədilə dövlət səviyyəsində sahələr üzrə idarəetmə subyektləri tərəfindən aparılan tədbirlər sisteminin məcmusu kimi başa düşülə bilər. Sosial proqnozlaşdırma ilk növbədə riyazi üsullara əsaslanan proqnozlaşdırma elminin metodoloji imkanlarından istifadə olunmaqla aparılan tədqiqatlara söykənməklə, sosial sferanın mahiyyətindən irəli gələrək sosioloji və demoqrafik aspektlərdə tədqiqat mahiyyəti kəsb etməsinə baxmayaraq, onun iqtisadi baxımdan proqnozlaşdırılması müstəsna əhəmiyyət kəsb etməkdədir. Sosial proqnozlaşdırılmanın iqtisadi müstəvidə aparılmasının əhəmiyyətinin kökündə cəmiyyətin sosial həyat keyfiyyətinin formalaşdırılmasının birbaşa surətdə onun sosial-iqtisadi imkanları ilə bağlı olması dayanmaqdadır. Belə ki, fərd tərəfindən dərk edilən sosial mühitin keyfiyyəti birbaşa surətdə iqtisadiyyatın da tədqiqat dairəsində olan sosial rifahın inkişafı ilə bağlıdır və əhalinin rifah halı isə iqtisadiyyatın özəl sektorunun inkişafı ilə yanaşı, sosial mühiti təşkil edən digər amillərin, o cümlədən əhali

gəlirlərinin formalaşmasına təsir edən sosial müdafiə sisteminin imkanlarından xeyli dərəcədə asılıdır.

Sosial müdafiənin proqnozlaşdırılması – onun maliyyə idarəetməsinin əsası hesab edilməlidir. Burada proqnozlaşdırılmanın aparılmasının əsas mahiyyəti və məqsədi – özünü sosial müdafiənin idarə olunmasında növbəti strateji siyasət kursunun müəyyən edilməsinə xidmət olunmasında göstərir.

Hər bir ölkədə proqnozlaşdırılmanın informasiya bazasının əhatəsinin tərkibi və xüsusiyyətlərindən asılı olaraq sahələr üzrə proqnozlaşdırılmaya metodoloji yanaşmalar müəyyən olunur və həmin metodologiyaya dəyişən ətraf mühit amillərinin təsiri baxımından vaxtaşırı olaraq yenidən baxılır. Bununla əlaqədar, sosial müdafiədə proqnozlaşdırılmanın metodoloji bazası sahələr üzrə formalaşır və təkmilləşdirilir.

Son nəticə olaraq, dolayısı ilə sosial müdafiənin daha səmərəli təşkili, nəzarətdə saxlanılması və inkişafı üçün dövlətin sosial məqsədlərinə və siyasətinə xidmət edən sosial proqnozlaşdırılmanın başlıca obyekti kimi – sosial müdafiənin proqnozlaşdırlmasının aparılması ilə əlaqədar dövlət orqanları səviyyəsində proqnozlaşdırılma metodologiyalarının da praktiki olaraq işlənilməsi həyata keçirilir. Dövlət orqanlarının buna məsul struktur bölmələrinə həvalə olunan davamlı proses olaraq proqnozların hazırlanması təcrübəsində proqnoz-modellərin də formalaşması baş verir ki, bu da sosial müdafiənin proqnozlaşdırılmasında modelləşdirilmənin yeri və əhəmiyyətini vurğulamağa əsas verir.

Əsasında modelləşdirmə dayanan proqnozlaşdırmanın dəqiqliyi riyaziyyata əsaslanan klassik iqtisadi modellərlə və müasir dünyada təkcə idarəetmə sahəsi üzrə müxtəlif icra və sahələr üzrə proqnoz göstəricilərindən riyazi metodlar çərçivəsində növbəti dövrlər üçün proqnoz rəqəmlərinin müəyyən olunması yanaşması hesabına təmin oluna bilməməkdədir. Bu gün proqnozlaşdırılmada dəqiqliyin təmin edilməsi üçün tələblər daha da genişlənmiş və özündə riyaziyyatla yanaşı, iqtisadiyyatın yeni tətbiqi elm sahəsi kimi getdikcə daha çox əhəmiyyət qazanmağa başlayan ekonometriyanın, habelə aktualçılığın da nəzərə alınmasını zərurətə çevirməkdədir. Digər bir trend isə - proqnozlaşdırılmanın informasiya texnologiyaları bazasında aparılmasının zərurət halını almağa başlamasıdır.

Proqnozlaşdırmaya münasibətdə sosial müdafiə ilə bağlı xarakterik cəhətlərdən biri müasir şəraitdə sosial müdafiəyə təsir edən və daim dəyişən amillər çoxluğundan irəli gələrək proqnozlaşdırılma metodologiyalarının da uyğunluğunun təmin olunması ehtiyacıdır. Bu baxımdan, sosial müdafiədə proqnozlaşdırılma ilə bağlı olan əsas problem kimi, qeyri-statik proses və ya hadisələrdən asılı olaraq proqnozlaşdırılmada kənarlaşmaların (xətalılığın) minimuma endirilməsi yönündə səylərin davamlılığın saxlanılması şərtinin özünü biruzə verməsi çıxış edir.

Hazırda, sosial müdafiədə proqnozlaşdırılmanın aparılmasında nəzərə alınmalı olan əsas amilləri, yaxud proqnozlaşdırma problemlərini aşağıdakı üç istiqamətdə təsnifatlaşdırmaq olar:

- müvafiq zaman müddəti aralığında sosial müdafiə sahəsinə təsir edən amillərin düzgün olaraq müəyyən edilməsi;
- sosial müdafiənin istiqamətləri üzrə dərininə genişləndirilməsinin prioritetliyinin qəbul edilməsi;
- istiqamətə uyğun müəyyən edilən amillər nəzərə alınmaqla daha az kənarlaşma ilə nəticələnəcək uyğun kalkulyasiya modelinin seçilməsi;
- modellər çərçivəsində nəzərə alınmaq üçün əhatəli və əlçatan məlumat (verilənlər) bazasının olması.

Sosial müdafiədə proqnozlaşdırılmanın tətbiqi və dərinləşdirilməsi zərurəti onun ayrı-ayrı istiqamətlərinə münasibətdə həmin sahələrin maliyyətutumlu olması dərəcəsi ilə bağlıdır. Sahə

üzrə proqnozlaşdırılmanın metodoloji əsasını - əsası riyazi, riyazi-iqtisadi, riyazi-statistik və riyazi-ekonometrik yanaşmaların tətbiqi təşkil etməklə, proqnoz nəticələrinin dəqiqliyi tətbiq edilən metodlarların adekvatlığı ilə mütənasib əlaqəlidir.

Sosial müdafiədə proqnozlaşdırılma üzrə tərtib edilən düstur və formullar heç də xətti mahiyyətli prosesləri əks etdirmədiyindən və sosial-müdafiə sistemindən kənar amillərlə əlaqədə qiymətləndirilmə tələb etdiyindən iqtisadi proqnozlaşdırılmanın digər bir çox sahələri ilə müqayisədə sosial müdafiədə hesablamaların aparılması bir çox hallarda simulyativ proqram təminatları vasitəsilə avtomatlaşdırılma tətbiq oluna bilinməməklə, birbaşa mütəxəssis səviyyəsində subyektiv təsirlərin nəzərə alınması və ya tətbiqi şəraitində baş verməlidir.

Bütövlükdə sosial müdafiə sahəsinin tərkib strukturu nəzərə alınmaqla sosial müdafiənin proqnozlaşdırılmasının amilləri mühitini aşağıdakı sxematik təsvirlə vermək mümkündür (şəkil 1):




**Şəkil 1.** *Sosial müdafiədə proqnozlaşdırılma prosesinin konseptual təsviri (müəllif tərəfindən tərtib edilmişdir)*

Azərbaycanda da sosial müdafiə sosial məsələlərlə birbaşa bağlılıq əlaqəsində həyata keçirilir ki, bu da sosial sahənin proqnozlaşdırılmasının, əsasən, maliyyə aspektinin dayandığını əks etdirir. Dövlətin sosial müdafiə xərcləri, dövlətin sosial xərclərinin əsas hissəsini təşkil edir.

Sosial müdafiənin proqnozlaşdırılması məqsədi – ölkənin iqtisadi, sosial və digər strateji proqramlarının və problemlərinin həlli, dövlətin funksiyalarının həyata keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş qaydada maliyyə vəsaitinin toplanması və istifadəsinin təmin edilməsi olan – dövlət büdcəsinin tərtibi prosesinin tərkib hissəsi olaraq həyata keçirilir. Bu prosesin həyata keçirilməsi zamanı proqnozlaşdırılmanın şaxələnməsi baş verir ki, burada diversifikasiya meyarının müəyyənləşməsinin əsas cəhəti kimi, sosial müdafiə xərclərinin maliyyələşmə mənbələrinə görə ayrılması özünü göstərir.

Azərbaycanda sosial müdafiə xərclərinin proqnozlaşdırılmasında dövlət büdcəsi və mövcud büdcə sistemi haqqında qanunvericiliyə əsasən, icmal büdcənin tərkib hissəsi hesab edilən – büdcədənkənar dövlət fondları səviyyəsində ayrılıqda spesifik xüsusiyyətlər nəzərə alındığı

metodoloji yanaşmalar istifadə olunur və icmal büdcə çərçivəsində həmin büdcələrin koordinasiyası və birləşdirilməsi həyata keçirilir.

Ümumən, belə xarakterizə etmək mümkündür ki, ölkədə sosial-iqtisadi makro göstəricilərin proqnozlaşdırılması üçün səlahiyyətli orqan statusu AR İqtisadiyyat Nazirliyinə aid edilmişdir. Dövlət büdcəsinin tərtibi predmeti olan istənilən məlumatların əldə olunması isə Maliyyə Nazirliyinin funksiyaları çərçivəsində özünü göstərir. Dövlət büdcəsinin tərtibinin özünün qayəsində isə proqnozlaşdırılma dayanmaqla, sahələr üzrə dövlət büdcəsindən maliyyələşən bütün aidiyyəti dövlət orqanları, qurumlar və təşkilatlar tərəfindən onların tələbatlarına müvafiq proqnoz göstəricilərinin tərtib edilərək vaxtaşırı Maliyyə Nazirliyinə təqdim edilməsi və icmal büdcə prizmasından büdcələrin tərtibi ölkədə budcə idarə olunması işinin təşkilinin əsas mahiyyəti olaraq təsvir edilə bilər.

Azərbaycanda növbəti büdcə ili üzrə dövlət büdcəsinin layihəsi ölkənin iqtisadi və sosial inkişafının makroiqtisadi proqnozları, məqsədli proqramlar, iqtisadiyyatın sahələrinin, inzibati rayonların, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisələrin cari və növbəti il üzrə maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin qiymətləndirilməsi əsasında hazırlanır. Büdcəyə daxilolmaların vəziyyətindən asılı olmayaraq sosial müdafiə mahiyyətli olmaqla iqtisadi təsnifatın əmək haqqı, əmək haqqına üstəlik, pensiya, başqa sosial müavinətlər və ödənişlər maddələri üzrə xərclər müdafiə olunan xərc maddələri hesab edilir və onlara sekvestr tətbiq olunmur [1].

Dövlət büdcəsi çərçivəsində sosial müdafiənin proqnozlaşdırılması ortamüddətli dövr (növbəti il və sonrakı üç il) üçün tətbiq edilməkdədir.

Sosial müdafiə ilə bağlı göstəricilərin proqnozlaşdırılması İqtisadiyyat Nazirliyinin təqdim etdiyi göstəricilər, Dövlət Statistika Komitəsinin açıqladığı informasiyalar və Əmək və Əhalinin Sosial Müdafiə Nazirliyi tərəfindən özünün hesabatlılıq və digər məlumat bazası resursları üzrə icra göstəricilərindən istifadə olunmaqla aparılmaqdıdır.

Bu çərçivədə ölkədə sosial müdafiənin aparıcı həlqələrindən olmaqla, əmək pensiyalarının, məcburi dövlət sosial sığorta haqları hesabına ödənilən sosial müavinətlərin maliyyələşdirilməsi mənbəyi kimi çıxış edən – dövlət sosial müdafiə fondunun və sığortaolunanların itirilmiş əməkhaqlarının kompensasiya olunması, eləcə də işsizliyin yaranması hallarının qarşısının alınması üçün qabaqlayıcı tədbirlərin görülməsi yolu ilə əhalinin sosial müdafiəsinin gücləndirilməsinə təminat verilməsi məqsədini daşıyan – işsizlikdən sığorta fondunun büdcələrinin tərtib olunması da ortamüddətli dövr üçün həyata keçirilməkdədir.

Azərbaycanda sosial müdafiənin maliyyələşdirilməsində əhəmiyyətli payı və rolu nəzərə alınmaqla, hesab edirik ki, dövlət sosial müdafiə fondu ilə bağlı proqnozlaşdırılmanın əsaslarının konseptual mənzərəsinin verilməsi məqsədəuyğundur:

Dövlət sosial müdafiə fondunun (bundan sonra – Fond) hər il üzrə büdcə layihələri “Büdcə sistemi haqqında”, “Sosial sığorta haqqında”, “Əmək pensiyaları haqqında” Azərbaycan Respublikası qanunlarının, “Dövlət büdcəsinin, büdcədənkənar dövlət fondları büdcələrinin tərtibi, icrası və icrasına nəzarət üzrə əməliyyatların əlaqələndirilməsinə dair Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Qərarının və hər il üçün qəbul edilən Azərbaycan Respublikasının dövlət büdcəsi layihəsinin, habelə ölkənin iqtisadi və sosial inkişaf konsepsiyasının və ortamüddətli proqnoz göstəricilərinin hazırlanması barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin müvafiq Sərəncamının, habelə digər normativ hüquqi aktların tələbləri nəzərə alınmaqla, ümumilikdə növbəti il üçün ölkənin iqtisadi və sosial inkişafa dair proqnozlara və demoqrafik göstəricilərə əsaslanılaraq hazırlanılır.

Ötən ortamüddətli dövr və cari ilin tamamlanmış dövrünü əhatə edən ölkənin əsas iqtisadi və sosial göstəriciləri (ümumi daxili məhsul, əhalinin nominal gəlir və xərcləri, orta aylıq nominal əməkhaqqı, minimum əməkhaqqı, minimum pensiya məbləği, əmək pensiyalarının orta aylıq məbləği, istehlak qiymətləri indeksi, məşğulluq və demoqrafiya göstəriciləri və s.), habelə ölkənin ortamüddətli iqtisadi və sosial inkişaf proqnozları, ayrı-ayrı kateqoriyadan olan şəxslərin sosial müdafiəsinin gücləndirilməsinə istiqamətlənmiş layihələr, növbəti il üçün büdcədən maliyyələşən təşkilatlar üzrə əməkhaqqı, o cümlədən vahid tarif cədvəli sistemi üzrə mümkün dəyişikliklər və digər aidiyyəti göstəricilərin proqnozlarına dair məlumatlar Fondun büdcəsinin layihəsini formalaşdıracaq əsas iqtisadi istiqamətləri müəyyən edir.

Qeyd edilən məlumatlar əsasında ölkənin demoqrafik vəziyyəti (əhalinin ümumi sayı, gender tərkibi, yaş qrupları üzrə əhali sayı, iqtisadi fəal əhalinin sayı, muzdla işləyənlərin sayı, yaş qrupları üzrə doğum, doğum ardıcıllığı, doğumun yaş əmsalları, doğum zamanı ananın orta yaşı, cins və yaş qrupları üzrə ölüm, yaş qrupları üzrə ölüm əmsalı, təbii artım, ömür uzunluğu, ailədə uşaqların sayı, əhalinin orta yaşı və s.) qiymətləndirilməklə Fondun büdcəsinin proqnoz hesablamaları aparılır. Daha sonra bu göstəricilərin sığorta-pensiya sisteminə təsiri müəyyən edilir və sistemin xüsusiyyətindən asılı olaraq kateqoriyalar üzrə sistemə daxil olacaq və çıxacaq şəxslərin, sığortaolunanların, eləcə də pensiyaçıların sayının dəyişməsinin proqnozları tərtib edilir. Eyni zamanda Fondun məlumat bazasında mövcud olan göstəricilər əsasında pensiyaçıların, eləcə də məcburi dövlət sosial sığorta haqları hesabına müavinət alanların sayının son illərdə dəyişməsinin sistemin maliyyə fəaliyyətinə təsiri təhlil edilir. Bununla yanaşı, ölkə üzrə məşğulluq göstəriciləri (əmək qabiliyyətli yaşda olan əmək qabiliyyətli əhalinin sayı, iqtisadi fəal əhali, əmək ehtiyatları, sahələr üzrə iqtisadiyyatda məşğul olanlar, muzdla işləyənlər, özünüməşğul şəxslər, işsizlər və s.) qiymətləndirilir və bu göstəricilərin Fondun büdcə gəlirlərinin və xərclərinin formalaşmasına təsiri ilə bağlı proqnozlar müəyyən edilir.

Qeyd edilənlər baxımından, sosial müdafədə sahələr üzrə proqnozlaşdırılmanın aparılması üçün təsirli hesab edilən faktorlar üzrə minimal zəruri hesab olunan göstəricilər sistemini aşağıdakı istiqamətlərdə təsnifatlaşdırmaq olar:

**1. Sığorta-pensiya sisteminin (dövlət sosial müdafiə fondunun gəlir və xərclərinin) proqnozlaşdırılma üzrə**

**Makrosəviyyəli sosial-iqtisadi mahiyyətli göstəricilər:** Ümumi daxili məhsulun artım tempi, ölkə üzrə ötən iki ildə hesablanmış, cari ildə gözlənilən və növbəti ildə proqnozlaşdırılan əməkhaqqı fondu, ötən il üzrə toplanmış və cari ildə gözlənilən məcburi dövlət sosial sığorta haqqı məbləği, sosial sığorta haqqı normativi, m.d.s.s.h. üzrə debitor borclar, məcburi dövlət sosial sığortasına cəlb edilməyən (azad olunan) m.d.s.s.h. potensialı, pensiya qanunvericiliyinə əsasən dövlət büdcəsinin öhdəlikləri kimi müəyyən olunmuş pensiya xərclərinin məbləği, fondun büdcəsinin balanslaşdırılması üçün transfertin məbləğinin müəyyənləşdirilməsi, orta aylıq əməkhaqqı və onun artım tempi, minimum əməkhaqqı, minimum əməkhaqqı alanların sayı, istehlak qiymətləri indeksinin artımı (inflyasiya), iqtisadiyyatda muzdla işləyənlərin sayı (o cümlədən muzdla işləyənlərin tərkibində qeyri-dövlət və dövlət sektorunda işləyənlərin payı), dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin aylıq vəzifə (tarif) maaşlarının tənzimlənilməsini nəzərdə tutan vahid tarif cədvəlinə uyğun olaraq müəyyən olunan əməkhaqqı dərəcələri və müvafiq tarif dərəcələri üzrə işləyənlərin sayı və s.

**Demoqrafik göstəricilər:** əhalinin təbii artımı (o cümlədən doğulandan gözlənilən ömür uzunluğu, doğum və ölüm əmsalları, uşaq ölümü), əhalinin yaş strukturu (o cümlədən əmək qabiliyyətli yaşda və pensiya yaşında əhalinin sayı göstəriciləri) və s.

**Siyasi-inzibati, idarəetmə mahiyyətli gözləntilər:** sığorta-pensiya sisteminin saxlanması və idarə olunması ilə bağlı xərclərin tənzimlənməsi, normativ baza üzrə şərtlərdə gözlənilən dəyişikliklər və s.

**2. İşsizlikdən sığorta fondunun (gəlir və xərclərinin) proqnozlaşdırılması üzrə**

**Makrosəviyyəli sosial-iqtisadi mahiyyətli göstəricilər:** ölkə üzrə ötən iki ildə hesablanmış, cari ildə gözlənilən və növbəti ildə proqnozlaşdırılan əməkhaqqı fondu, əməkhaqqı fondunun maliyyə mənbələrinə görə bölgüsü (büdcə təşkilatları və qeyri-büdcə sektoru üzrə), ötən il üzrə toplanmış və cari ildə gözlənilən məcburi dövlət sosial sığorta haqqı məbləği, işsizlikdən sığorta haqqı normativi, orta aylıq nominal əməkhaqqı və onun artım tempi, iqtisadiyyatda muzdla işləyənlərin sayı (o cümlədən muzdla işləyənlərin tərkibində qeyri-dövlət və dövlət sektorunda işləyənlərin payı), işsizlikdən sığorta üzrə debitor borclar, işsizlikdən sığortaya cəlb edilməyən (azad olunan) yığım potensialı, ötən iki ildə işsizlik dərəcəsinin artım tempi və s.

**Siyasi-inzibati və idarəetmə mahiyyətli gözləntilər:** işsizlikdən sığorta fondunun hazırda mövcud qanunvericiliyinə əsasən xərc istiqamətlərini təşkil edən – işsizliyə görə sığorta ödənişləri, peşə hazırlığı və əlavə təhsilin təşkili, peşə yönümünə dair məsləhət xidmətlərinin göstərilməsi, əmək yarmarkalarının, əmək birjalarının təşkili, haqqı ödənilən ictimai işlərin təşkili, özünüməşğulluq tədbirlərinin təşkili, sosial iş yerlərində işçilərin əməkhaqqının bir hissəsinin maliyyələşdirilməsi, peşə standartlarının hazırlanması, saxlanma xərcləri, sosial müdafiəyə xüsusi ehtiyacı olan və işə düzəlməkdə çətinlik çəkən şəxslərin məşğulluğunun təmin olunması üçün kvotadan əlavə iş yerlərinin yaradılması, sosial müəssisələrin yaradılması və məqsədli proqramların həyata keçirilməsi sahələri üzrə ötən iki ilin icra göstəriləri və onlarla bağlı gözlənilən (nəzərdə tutulan) artımlar və s.

**3. Ünvanlı dövlət sosial yardımının (xərclərinin) proqnozlaşdırılması üzrə:**

**Sosial-iqtisadi mahiyyətli göstəricilər:** ev təsərrüfatlarının sosial-iqtisadi göstəriciləri, növbəti il üzrə ehtiyac meyarının məbləğinin proqnozu, son iki ildə və cari ildə yoxsulluq səviyyəsi, iqtisadi artımın səviyyəsi, yoxsulluq həddi və s.

**4. Dövlət büdcəsi hesabına sosial mahiyyətli xərclərin tərkibində sosial müdafiə xarakterli xərclərinin proqnozlaşdırılması üzrə:**

- əvvəlki ilin büdcəsinin proqnoz və kassa icrası göstəriciləri, ölkə iqtisadiyyatının növbəti ildə inkişaf parametrləri və digər bir sıra göstəricilər və s.
- dövlət büdcəsində əmək haqqı, əmək haqqına üstəlik, Fonda ayırmaların cari ildəki göstəriciləri və s.

Yuxarıda sosial müdafiə sahəsinin inkişafının hərəkətverici amili olaraq qiymətləndirdiyimiz – onun maliyyətutumlu istiqamətləri ilə bağlı nümunəvi məqsədli təsnifatlaşdırma aparılmışdır. Belə ki, proqnozlaşdırılmada nəzərə alınan göstəricilər və ya parametrlərə münasibətdə isə məhdudiyyət olmammaqla, proqnozların dəqiqiləşdirilməsi istiqamətində burada istifadə edilən göstəricilər sistemi proqnozlaşma mütəxəssisi mövqeyindən istənilən qədər genişləndirilə bilər. Bu təsnifatlaşdırma əsasında, belə bir ümumiləşdirici mülahizəyə də gəlmək olur ki, sosial müdafiədə proqnozlaşdırma aparılmasında dövlət büdcəsi və büdcədənkənar fondlara münasibətdə spesifik proqnozlaşdırılma yanaşmalarından istifadə olunması mütləqdir.

Büdcədənkənar vəsaitlər hesabına formalaşdırılan fondlar üzrə və dövlət büdcəsi çərçivəsində gəlir və xərclərin istiqamətlər üzrə proqnozlaşdırılması həmin istiqamətlərin məzmunu, tənzimlənilmə və formalaşma əsasları və xüsusiyyətlərinə uyğun yanaşmaların tətbiqilə təmin edilir və təkmilləşdirilir.

Azərbaycanda sosial müdafiənin proqnozlaşdırılma əsasları büdcə sisteminin tənzimlənilməsi ilə bağlı formalaşmış normativ baza üzərində qurulmaqla, onun maliyyə miqyası dövlət büdcəsinin, eləcə də büdcədənkənar dövlət fondlarının maliyyə imkanları hesabına formalaşdırılır.

Sosial müdafiənin (sosial müdafiə və təminat istiqamətlərinə ayırılmaqla) ölkədə 2024-cü il dövlət büdcəsi qanunu ilə proqnozlaşdırılmış maliyyə miqyası 4,54 mlrd. manat (və ya dövlət büdcəsinin cəmi xərclərinin 12,36 faizi qədər), dövlət sosial müdafiə fondu vasitəsilə isə 6,68 mlrd. manat həcmində müəyyən olunduğunu hesab etmək olar [2].

Bu baxımdan hesab etmək olar ki, dövlət büdcəsinin cəmi xərclərinə münasibətdə ümumən sosial müdafiə xərclərinin nisbəti 18,19 faiz uyğunluğundadır. Bu da funksional təsnifat üzrə 2024-cü ildə iqtisadi fəaliyyət xərclərinə ayrılan vəsaitlərdən (7,38 mlrd. manat və ya cəmi xərclərdə xüsusi çəkisi 20,3 faiz), ümumi dövlət xidmətləri üzrə xərclərinə 4,81 mlrd. manat (xüsusi çəkisi 13,2 faiz), müdafiə və milli təhlükəsizlik üzrə xərclərə 6,42 mlrd. manat (xüsusi çəkisi 17,7 faiz) ayrılan vəsaitlərlə yanaşı qabaqcıl xərc istiqamətlərindəndir.

Dövlət büdcəsinin sosial müdafiə əhəmiyyətli proqnoz göstəricilərinin müəyyənləşdirilməsində əvvəlki illərin göstəriciləri üzərində ilk növbədə növbəti il (illər) üçün sahəvi strateji hədəflərə (dövlət proqramları, konsepsiyalar və qanunlar) uyğunlaşdırılmış mövqe tutulmaqla iqtisadiyyatın şaxələndirilməsi ilə bağlı sektoral prioritetlərin təsiri imkanları da əsas tutulan amillərdən biri olaraq özünü göstərir.

Azərbaycanda sosial dövlət modelinin seçilməsi dövlət büdcəsinin tərtibatının da strukturunun formalaşmasına öz təsirini göstərir. Burada dövlət büdcəsinin gəlir hissəsində neft və qeyri-neft/qaz gəlirləri üzrə daxilolmaların dünya bazarında formalaşan qiymət indeksləri onun proqnozlaşdırılmasının spesifiklik xüsusiyyətlərini formalaşdırır.

Azərbaycan Respublikası Maliyyə Nazirliyinin "2024-cü ilin icmal və dövlət büdcələrinin ilkin göstəricilərinə dair açıqlama" məlumatına da əsaslanmaqla, qeyd etmək olar ki, dövlət büdcəsi gəlirlərinin əhəmiyyətli hissəsinin neft sektorundan daxil olmasının əhəmiyyətli səviyyədə olması (49,6 faiz) dövlət modelinə uyğun tutulmuş sosial-iqtisadi tənzimləmə kursunun da möhkəmləndirilməsinə imkan verəcək sosial müdafiə (və sosial təminat) xərclərinin növbəti il (illər) üçün artırılması üçün də əlavə imkanlar yaradılmasına şərait yaradır [3].

**Azərbaycanda sosial müdafiənin proqnozlaşdırılması ilə bağlı aktual problemlər**

Vurğuladığımız kimi, sosial müdafiənin proqnozlaşdırılması diskret proqnozlaşdırılma tərtibatına uyğun olmamaqla, onun dəqiqliyi istənilən zaman kəsiyində sosial müdafiəyə təsir göstərməklə daim dəyişən amillərin aşkarlanması, həmin amillərin sistemə təsiri imkanlarının dəyərləndirilməsi, proqnozlaşdrılma modelləri çərçivəsində nəzərə alınması vacibliyinin müəyyən olunması və nəhayət, proqnoz hesablanması üçün nəzərə alınan verilənlərin (göstəricilərin) qurulmuş alqoritmlərə əsasalanan hesablama metodologiyaları tərkibində nəzərə alınması səriştəsi, eləcə də daxil edilən faktor-elementlərin dərinliyi və təfərrüatlılığından bilavasitə asılıdır.

Dövlət sosial müdafiə fonduna ödənişlər (məcburi dövlət sosial sığorta haqları) digər dövlət gəlir mənbələri (vergi və vergi olmayan gəlirlər, Naxçıvan MR-in gəlirlərindən və dövlət neft fondunun gəlirləri) ilə yanaşı icmal dövlət büdcəsinin tərkib hissəsi hesab edilir.

Yuxarıda qeyd etdiyimiz göstəricidən də göründüyü kimi, dövlət sosial müdafiə fondu vasitəsilə maliyyələşdirilən sosial müdafiə xərcləri dövlət büdcəsi xətti ilə olan maliyyələşdirməni üstələməkdədir ki, bu da dövlət sosial müdafiə fondunun gəlir və xərclərinin icrası, eləcə də proqnozlaşdırılması ilə bağlı təkmilləşdirilmələrin davamlı aparılması zərurətini ön plana çıxarır.

Hazırkı mərhələdə sosial müdafiədə proqnozlaşdırılmanın əsas altsahəsi kimi, dövlət sosial müdafiə fondu ilə əlaqədar proqnozlaşdırılmanın aparılması ilə bağlı bəzi müasir problemlərə nəzər salmağı vacib hesab edirik:

Hazırda dövlət səviyyəsində Maliyyə Nazirliyinin 10.15.2012-ci il tarixli qərarı ilə təsdiq edilmiş "Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası" sənədini icmal büdcə gəlirlərinin tərkib istiqaməti kimi dövlət sosial müdafiə fonduna məcburi sosial sığorta ödənişlərinin proqnozlaşdırılması ilə bağlı yeganə normativ mənbə hesab etmək olar [4].

Bununla belə, istər zaman aşımı baxımından, istərsə də proqnozlaşdırılmada dəqiqiliyin artırılması məqsədli dərinləşdirilmənin təmin olunması üçün bu metodologiyanın özünə də baxılması zərurəti əhəmiyyət kəsb edəcəkdir. Xüsusilə, bu metodoloji mənbə yalnız proqnozlaşdırılan cəmi məbləğin hesablanmasına şamil olunmaqdadır ki, bu da qurumlar səviyyəsində aparılan proqnozlaşdırılmanın miqyası ilə üst-üstə düşməməklə, sənədin özünün də təkmilləşdirilməsinə ehtiyac olduğunu deməyə əsas verir. Halbuki, dövlət qurumları səviyyəsində proqnozlaşdırılma nəticələri əsasında sosial müdafiə qərarlarının verilməsi üçün daha çox şaxəli istiqamətlər üzrə detallı proqnozlaşdırma modellərinin işlənilməsi və istifadəsi tələb olunur.

Dövlət sosial müdafiə fondunun büdcəsi haqqında qanunun strukturu ötən bütün illərdə indiyədək gəlir və xərclərin balanslılığı prinsipi əsasında tərtibata əsaslanmışdır. Bu baxımdan, təbii ki, onun büdcəsinin xərclərinin müəyyənləşdirilməsi zamanı gəlir mənbələrinə uyğun bölgü yanaşmasından istifadə olunmuşdur. Burada yalnız xüsusi bir məqam - dövlət sosial müdafiə fondunun gəlir mənbəyi istiqamətləri arasında məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalardan sonra ən mühüm xərc istiqamətinin dövlət büdcəsindən ayrılan transfert məbləğlərinin olmasıdır.

2017-ci ildə "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının 7 fevral 2006-cı il tarixli 54-IIIQ nömrəli Qanununa edilən müvafiq dəyişiklərə əsasən, pensiyaların sığorta prinsipilə müəyyən edilməsinin gücləndirilməsi və digər məqsədlərlə pensiyaların dövlət büdcəsi hesabına ödənilən – baza hissəsi yanaşmasının ləğv edilərək, ödənilən sığorta haqlarından fərdi hesablara yönəldilmə payının artırılmaqla pensiyaların yalnız sığorta hissəsindən ibarət olmaqla yenidən şərti hesablanmasına və təyinatına keçildi ki, bu, əsas maliyyə xarakterli dəyişikliklərdən biri kimi, pensiyanın dövlət büdcəsi hesabına ödənilən baza hissəsinin ləğv edilməsi və pensiya sisteminin xərclərinin sığorta prinsipinə əsaslanmadığı hesab edilən güzəşt xarakterli təminat istiqamətləri üzrə hissəsinin maliyyələşdirilməsi öhdəliyinin dövlət büdcəsinin üzərinə qoyulması ilə nəticələndi (eyni zamanda fondun maliyyə dayanıqlılığı baxımından proqnozlaşdırılma əhəmiyyəti daşıyan – "sığorta ehtiyatı" yanaşmasının tətbiqinə keçildi (bununla bağlı məsələyə aşağıda toxunulmuşdur)) [5].

Bu zaman sözügedən dəyişkliklərdən sonra növbəti illərdə (indiyədək) dövlət sosial müdafiə fondunun büdcə sənədi qismində həmin vaxtadək qəbul edilmiş qanunlarda büdcənin gəlir istiqamətlərindən biri olaraq istifadə edilmiş – "dövlət büdcəsindən ayımalar" ifadəsindən uzaqlaşılmaqla, gəlir istiqaməti olaraq "sosial təminatı və müdafiəni həyata keçirən müvafiq icra hakimiyyəti orqanının büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsait" ifadəsinin istifadəsinə keçildi ki, bu da hazırda dövlət büdcəsindən ayrılan transfertin əsas məqsədinin Fondun büdcəsinin kəsir yaranmaması məqsədilə balanslılığının təmin edilməsi məqsədinin əsas götürüldüyünü anlamağa imkan verir. Bu, fondun məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərinin təkbaşına sosial-iqtisadi və demoqrafik proseslər (məşğulluq və sahibkarlıq mühitinin struktur dəyişmələri, əhali dinamikası, yaşlı əhali payındakı tərəddülərlə əlaqədar) və inzibati-iqtisadi

təsirlər nəticəsində (sosial rifah mühitinin tənzimlənilməsi məqsədilə inflyasiya, orta aylıq nominal əməkhaqqlarının artımı indekslərinin idarəetmədə nəzərə alınması ilə əlaqədar verilən qərarlarla) ilbəil artmaqda olan pensiya xərclərini özülüyündə qarşılaya bilməyəcəyi reallığı ilə də əlaqələndirilə bilər. Bununla belə, eyni vaxtda hərbi qulluqçular, xüsusi rütbəli şəxslər və digər xüsusi (spesifik) kateqoriyadan olan sığortaolunanlara münasibətdə sığorta əsası olmayan güzəşt (imtiyaz) xarakterli pensiya təminatını əhatə edən maliyyələşmə öhdəliklərinin dövlət büdcəsinin üzərinə keçirilməsi Fond qarşısında hər il onun büdcə qanunu ilə təsdiqlənməklə transfert şəklində ayrılan vəsaitin proqnozlaşdırılması, uçotu və hesabatlılığın artması məsuliyyətinin də önəmli ölçüdə artmasını şərtləndirmişdir. Bu isə, eyni zamanda proqnozlaşdırlma obyekti olan – pensiyaların xərcləri üzrə dövlət öhdəliyi məbləğlərinin dəqiq müəyyən edilməsi üçün yalnız sahə üzrə hesabat məlumatlarının, yaxud əldə olunan digər makroiqtisadi statistik göstəricilər kifayət etməməklə, olduqca geniş parametrli elektron verilənlər-baza məlumatlarına əsaslanan hesablamaların aparılmasını tələb etməkdədir. Bu halda Fondun mövcud büdcə quruluşunda onun büdcəsinin balansılılığının ekonometrik mahiyyətindən də başa düşüləndir ki, Fonda köçürülən transfert məbləğləri dövlət öhdəliklərini tam əhatə etmədiyi, yəni qanun sənədi çərçivəsində daha az proqnozlaşdırıldığı və ya təsdiqlənildiyi təqdirdə, cari məcburi dövlət sosial sığorta ehtiyatlarından xərclənmə baş verəcəkdir ki, bu da sığorta-pensiya sisteminin maliyyə dayanıqlılığı baxımından mənfi təsirə malik olacaqdır.

Bu fikri Azərbaycan Respublikası Hesablama Palatası tərəfindən “Dövlət sosial müdafiə fondunun 2024-cü il üçün büdcə layihəsinə Azərbaycan Respublikası Hesablama Palatasının Rəyi” sənədi ilə açıqlanmış münasibət də təsdiq etməkdədir [6, s.13-14].




**Şəkil 2.** *Dövlət büdcəsindən Fonda köçürülən vəsait haqqında məlumat.*
*Mənbə: Azərbaycan Respublikası Hesablama Palatası*

Şəkil 2. görmək olar ki, son illərdə Fondun sistemdaxili hərəkətlilik və indeksləşdirilmə nəticəsində xərclərinin yüksəldiyi, pensiya xərclərinin xərctutumlu qismi kimi, proqnozlaşdırılma obyekti olmaqla, dövlət öhdəlikləri kimi müəyyən olunan xərclər də artmalı olduğu halda, dövlət büdcəsindən köçürülən transfertlərin səviyyəsi dəyişməmiş, hətta bəzi illərdə əvvəlki ilə nisbətən azalma da qeydə alınmışdır.

Belə ki, Palata tərəfindən də qeyd olunur ki (şəkil 2.), 2018-ci illə müqayisədə 2024-cü ildə dövlət büdcəsindən köçürüləcək vəsaitin ümumi xərclərdə xüsusi çəkisi 15,5 faiz bəndi azalmış, qeyd edilən azalma Fondun xərclərinin 84,2% artımı fonunda baş verəcəkdir ki, bu da artımın əsasən sosial sığorta gəlirləri hesabına maliyyələşəcəyini göstərir [6].

"Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, sosial sığorta ehtiyatı – sığorta olunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının fərdi hesabın sığorta hissəsinə və idarəetmə xərclərinə yönəldilən hissəsi çıxıldıqdan sonra yerdə

qalan məbləğdə formalaşdırılan, əmək pensiyalarının bu Qanunda müəyyən olunmuş əmək pensiyasının minimum məbləğinə çatdırılması, məcburi dövlət sosial sığorta haqları hesabına müavinətlər və digər ödəmələr üzrə xərclərin maliyyələşdirilməsinə yönəldilən, istifadə qaydası müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən olunan və ilin sonuna istifadə edilməmiş qalığı növbəti ilə keçən vəsaitdir. Qanuna əsasən, fərdi hesabın sığorta hissəsi - əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün nəzərə alınan, sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 90 faizinin (dəyişikliklərə qədər bu nisbət – 50 faiz olaraq nəzərə alınırdı) və xüsusi hesabdakı vəsaitin qeydə alındığı subhesabdır, idarəetmə xərcləri isə – məcburi dövlət sosial sığortası, fərdi uçot, əmək pensiyası və digər sosial ödənişlər sisteminin idarə edilməsinə yönəldilən və yuxarı həddi sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının 2,5 faizi məbləğində müəyyənləşdirilən xərclərdir. Bu xərclərin təsdiq edilən məbləğdən artıq olan hissəsi və istifadə edilməmiş qalığı sosial sığorta ehtiyatına aid edilir [7].

Sığorta-pensiya sisteminin maliyyə dayanıqlılığının artırılması ilə bağlı strateji məqsədlərə uyğun olaraq, əhalinin sosial müdafiəsinin gücləndirilməsinə, həmçinin məhz iqtisadi nöqteyi-nəzərdən əhali gəlirlərinin mühüm hissəsi kimi, pensiya gəlirlərinin alıcılıq qabiliyyətinin tədricən aşağı düşməsinin təsirinin yumşaldılmasına və sosial cəhətdən həssas əhali təbəqəsinin həyat səviyyəsinin saxlanılmasına xidmət etməklə illik əsasda aparılan və çox hallarda dövlət sosial müdafiə fonduna məcburi dövlət sosial sığorta haqları daxilolmalarının illik artım templərini üstələyən indeksləşdirilmə tədbirləri, eləcə də inzibati əsasda tətbiq edilən digər artımlar pensiya sisteminin xərclərinin eyni zamanda dinamik şəkildə artmasını da şərtləndirməkdədir.

Xərclərinin təqribən 95 faizi ətrafında hissəsini təkcə pensiya xərcləri təşkil edən və balanslaşdırılma prinsipilə indiyədək tərtibi və idarə olunması həyata keçirilmiş dövlət sosial müdafiə fondununun məcburi dövlət sosial sığorta haqqı daxilolmaları ilə yanaşı, digər əhəmiyyətli gəlir istiqamətini təşkil edən – onun büdcəsinin balanslaşdırılması məqsədilə dövlət büdcəsinin öhdəliklərinin maliyyələşdirilməsi üçün dövlət büdcəsindən ayrılan vəsaitlərin məbləğinin müəyyənləşdirilməməsi ilə bağlı qeyri-dəqiqlik vəziyyətində həmçinin dövlət sosial müdafiə fondu vəsaitlərinin idarəetməsini həyata keçirən Dövlət Sosial Müdafiə Fondunun daxili imkanları hesabına ekonometrik yanaşmalardan istifadə olunmaqla hesablanılaraq il ərzində dövlət büdcəsindən transfert şəklində köçürüləcək vəsaitin məbləğinin Maliyyə Nazirliyi ilə bölgü sənədi əsasında razılaşdırılmaqla müəyyənləşdirilmiş məbləğlərinin də tam həcmdə (əvvəlki illərin təcrübəsi ilə də təsdiqini tapdığı kimi) Fonda açılmaması nəzərə alınaraq Fondun sığorta əsaslı vəsaitlərinin getdikcə daha çox xərclənməsinə gətirib çıxaracağını demək mümkündür.

Düşünmək olar ki, sığorta-pensiya sisteminin maliyyələşmə mənbəyinin struktur tərkib elementləri arasında nisbi çəki baxımından riyazi-ekonometrik asılılıq əlaqələrinin mövcudluğu nəzərə alınmaqla mövcud vəziyyətdə sistemdə sığorta ehtiyatları hesabına baş verməkdə olan maliyyələşmələr daha da dərinləşəcəkdir.

Qeyd edilənlər əsas götürüldükdə, ölkədə iqtisadi artım prosesi üçün potensial imkanların gözlənilməsi və əhali gəlirlərinin gözlənilən artımı fonunda dövlət sosial müdafiə fonduna daxil olan sığorta ayırmalarının da artım tendensiyası nəzərə alınmaqla mövcud islahatlılıq şəraitində sığortaolunanlar üzrə ödənilmiş məcburi dövlət sosial sığorta haqlarının əmək pensiyasının sığorta hissəsinin hesablanması üçün fərdi şəxsi hesabın sığorta hissəsində nəzərə alınan hissə parametrinə (90 faiz) qənaətcillik nöqteyi-nəzərdən əhatəli qiymətləndirmələr nəticəsində yenidən baxılmasını uzunmüddətli perspektivdə sığorta-pensiya sisteminin benefisiarlarının

sosial müdafiəsinə mənfi yöndə təsirli olaraq qiymətləndirilməməklə, maliyyə dayanıqlılığı aspektindən sığorta-pensiya sisteminin imkanlarını daha çox artıracağını hesab etmək olar.

Belə ki, hesab edirik ki, bilavasitə sığorta ehtiyatlarının məbləğinin qiymətləndirilməsi ilə bağlı aparılacaq hesablama nəticələri il sonuna sığorta ehtiyatı qalıqlarının kumulyativ tendensiyasını göstərə bilər ki, bu da nəzəri olaraq sığorta-pensiya sisteminin həmrəylik prinsipilə məcburi dövlət sosial sığortasına əsaslanmaqla fəaliyyət göstərən hazırkı sxemi (tərtibatı) çərçivəsində maliyyə dayanıqlılığını zəiflədən başlıca amillərdən biri kimi diqqət tələb edən və inzibati idarəetmə səviyyəsində geniş verilənlər (data) əsasında təhlillərə söykənməklə mütamadi nəzarətdə saxlanılmalı proqnozlaşdırılma problemi mahiyyəti kəsb etməkdədir.

2018-ci ildə Azərbaycan Respublikası Vergi Məcəlləsinə və "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda edilən dəyişikliklərə əsasən, 2019-cu ildən etibarən məcburi dövlət sosial sığortası ilə bağlı yığım və nəzarət-hesabatlılıq funksiyaları Fond orqanları üzərindən götürülərək dövlət vergi orqanlarının səlahiyyətləri çərçivəsinə daxil edilmişdir. Bu əsasda həmin vaxtdan məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmaların proqnozunun müəyyən edilməsi ilə bağlı birbaşa vəzifələr (yalnız AR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi ilə (Fondla) razılaşdırılmaqla) dövlət vergi orqanlarının (hazırda, AR İqtisadiyyat Nazirliyinin tabeliyində Dövlət Vergi Xidməti) üzərinə keçirilmişdir. Bu çərçivədə isə qanunvericilik tələblərində yer almaqla Fondun hər il üçün qəbul edilən büdcəsi haqqında qanunun tətbiqi haqqında müvafiq fərmanlarla məcburi dövlət sosial sığorta haqları üzrə gəlirlərin aylıq və rüblük bölgüsünün 10 (on) gün müddətində Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Maliyyə Nazirliyi ilə razılaşdırmaqla təsdiq edilməsi İqtisadiyyat Nazirliyinə tapşırılır [1], [2], [3].

Proqnozlaşdırma nöqteyi-nəzərdən bu dəyişikliyin təsirlərinə nəzər yetirsək, qeyd edə bilərik ki, doğrudur ki, sığorta-pensiya sisteminin qeyd etdiyimiz dəyişikliklərə qədərki fəaliyyəti ərəfəsində fəaliyyətin təşkili mexanizminin əsas cəhətləri belə idi ki, Fondda yığım funksiyası Fondun ərazi (yerli) orqanları səviyyəsində əsasən qəbz və ya nəğd ödəmə üsulları ilə həyata keçirilməklə yanaşı, Fond məcburi dövlət sosial sığortasına cəlb edilən gəlirlərin və həmin gəlirlərin şamil edildiyi sığortaolunanlar barədə hesabatların toplanmasını və sonrakı uçotunu da özü həyata keçirirdi və yalnız vergi orqanları ilə əməkdaşlıq mahiyyətində sığortaedənlərin fəaliyyətinin olub-olmaması, eləcə də rüblər ərzində həmin sığortaedənlərdə muzdla işləyənlərin sayı barədə fiziki şəkildə dövri əldə olunan məlumatlarla üzləşdirilmələrin aparılması həyata keçirilə bilirdi ki, bu kimi hallar bu istiqamətdə işin təşkili ilə bağlı subyektiv hallara - əsas mahiyyəti etibarilə təsərrüfat fəaliyyəti göstərildiyi halda Fonda fəaliyyətin olmadığı barədə bəyannamələr verilməsi və ya işçi sayının az göstərilməsi yolu ilə məcburi dövlət sosial sığortasına cəlb olunan yığım bazasının azaldılmasına və nəticədə maliyyə potensialının proqnozlaşdırılma qaydasında tam qiymətləndirilə bilməməsinə də imkanlar açırdı. Bu baxımdan hesab etmək olar ki, məcburi dövlət sosial sığorta haqları ilə bağlı yığım-hesabatlılıq-nəzarət funksiyalarının qeyd etdiyimiz dəyişkliklərə uyğun olaraq dövlət vergi orqanlarına verilməsi hesabatlılığın qəbulu ilə bağlı prosedurların sığortaedən üçün sadələşdirilməsinə (elektron formatda təşkil edilməklə vergi, icbari tibbi sığorta ödəmələri ilə eyni vaxtda vahid (konsolidə edilmiş) hesabat formasında təqdim olunma baxımından), Fondu isə hesabatlılığın təşkili və nəzarət işi ilə bağlı təşkilati-idarəetmə yükündən azad etsə də, hələ ki, Fond tərəfindən sığorta-pensiya sisteminin cari və potensial maliyyə imkanlarının tam və düzgün qiymətləndirilməsi ilə bağlı təhlil-yoxlama imkanlarında məhdudlaşmaları da özü ilə gətirməkdədir. Belə ki, hazırkı mərhələdə bu proseslərdə Fondun mövqeyi yalnız dövlət vergi orqanları tərəfindən elektron qaydada rüblük toplanılan hesabatlar üzrə maliyyə göstəricilərinin, eləcə də Fondun xəzinədarlıq hesablarına daxil olan (lakin yenə də

qanunvericiliklə də icazə verilmiş təyinatı baxımından həmin ödəmələrin hesablararası yerdəyişməsini nəzərdə tutan müxabirləşmə əməliyyatları aparılmaqla) vəsait məbləğləri barədə məlumatlar əldə edilməsi əsasında cari və onun üzərində proqnoz maliyyə imkanlarını müəyyən edilə bilməsi çərçivəsini almışdır. Beləliklə, Fondun qeyd edilən istiqamətdə monitorinq etmə imkanlarının zəifləməsi eyni zamanda sığortaedənlərə (işəgötürənlərə) münasibətdə yığım-maliyyə imkanları və tendensiyalarına da Fondun xeyrinə təsir göstərilmə imkanlarını məhdudlaşdırmışdır. Bu isə eyni vaxtda sosial-iqtisadi mahiyyəti vergi ödəmələrindən tamamən ayrı olan - məcburi dövlət sosial sığortaya cəlb edilmə bazasının vergiyə cəlb edilmə bazası ilə eyni götürülməsi mexanizmi üzərində sığorta-pensiya sisteminin yığım bazası kimi, növbəti illər üzrə məcburi dövlət sosial sığorta haqları üzrə Fondun gəlirlərinin proqnozunun müəyyənləşdirilməsi rıçaqlarının, bir növ, dövlət vergi orqanlarının təsirinə daha çox düşməsi mahiyyətində (debitor-kreditor borclarının, daxilolmaların tənzimlənilməsinə təkbaşına mümkün təsir imkanları baxımından) yaranması, daxilolma də təsəvvür oluna bilər ki, bu məqamlar da, hesab edirik ki, müasir şəraitdə ölkədə nəzəri olaraq sosial müdafiənin təmin olunmasında mühüm paya malik olan məcburi dövlət sosial sığortasında proqnozlaşdırılma əhəmiyyətli problemlər sırasındadır.

**Nəticə və təkliflər.**

Nəzəri olaraq dəyərləndirilən problemlər, həmçinin müşahidələrimizə də əsasən, Azərbaycanda sosial müdafiənin hazırkı inkişafı mərhələsində, hesab edirik ki, təkmilləşmə istiqamətində proqnozlaşdırılmanın aparılması ilə bağlı aktual problemləri aşağıdakı istiqamətlərdə icmallaşdıra bilərik:

- proqnozlaşdırılmanın, əsasən, əvvəlki illərin sahələr üzrə faktiki illik icra göstəriciləri üzərində az sayda makrodəyişənlərin nəzərə alınması şəraitində aparılması;
- əksər aidiyyəti qurumlar səviyyəsində proqnozlaşdırılmanın dərininə genişləndirilməsi ilə bağlı təşəbbüslər yetərincə hiss olunmamaqda olması;
- proqnozlaşdırılmanın dərininə genişləndirilməsi üçün mərkəzləşdirilmiş elektron informasiya resurslarının məlumat bazasının imkanları ilə bağlı çatışmazlıq ehtimallarının mövcudluğu;
- açıqlanan rəsmi dövlət statistikası göstəricilərinin çeşidliyinin proqnozlaşdırılmanın dərinləşdirilməsinə tam imkan verməməsi;
- sosial müdafiədə əhaliyə sosial ödənişlərlə bağlı olan büdcə pronqozlaşdırılmasını tələb edən sahələr üzrə tətbiq edilən proqnozlaşdırılma metodologiyaları ilə bağlı informasiyaların ictimai əlçatanlığı ilə bağlı vəziyyətin yaxşılaşdırılmasının məqsədəmüvafiq olması;
- sosia müdafiənin bütün sahələrində maliyyə tələbatının müəyyən edilməsində əhaliyə ödənişləri əks etdirən istiqamətlər istisna olmqla, digər bütün xərc istiqamətləri (idarəetmə, saxlanma və s.) qənaət prinsipinin qorunmasının əsas tutulması vacibliyinin nəzərə alınması, bu zaman qoyulan proqnozun tam icra olunmasının hədəf olaraq görülməsi yanaşmasının aradan qaldırılmasının əhəmiyyətli olması;
- sosial müdafiə sahələrində proqnozlaşdırılma tələb edən istiqamətlərdə proqnoz hesablamalarının aparılmasında verilənlər qismində istifadə məqsədilə müvafiq qurumlar arasında qarşılıqlı işin təşkilinin hələ də lazımı koordinasiya mühitində qurulmaması və konkret məlumatlar üzrə zəruri məlumat mübadiləsinin normativ çərçivəyə salınmasının vacibliyi;
- sahələr üzrə proqnozlaşdırılma işinin nəticələrinin daha çox gəlir və xərc istiqamətləri üzrə qoyulmuş proqnozların icrası vəziyyətinin təkcə faizlə qiymətləndirilməsi metodu ilə (mövcud praktikaya əsasən “100 faiz”lik hədəf ətrafında yolverilən 5 faizlik tərəddüdlər çərçivəsində)

qiymətləndirilməsi yanaşmasının, inkişaf baxımından əlavə spesifik üsullarla da genişləndirilməsinin səmərəliliyi artıracağına baxılmasının zəruri hesab edilməsi.

## ƏDƏBİYYAT


1. "Büdcə sistemi haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/1126)
2. "Azərbaycan Respublikasının 2024-cü il dövlət büdcəsi haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/55872)
3. [Elektron resurs] /Azərbaycan Respublikası Maliyyə Nazirliyi, https://www.maliyye.gov.az/scripts/pdfjs/web/viewer.html?file=/uploads/news_files/650c0c4bb43b2.pdf [Müraciət tarixi: 31.05.2024]
4. "Dövlət gəlirlərinin proqnozlaşdırılması və modelləşdirilməsi metodologiyası"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Maliyyə Nazirliyinin 10.05.2012-ci il tarixli Q-05 nömrəli Qərarı // https://e-qanun.az/framework/23594
5. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikasının 10 mart 2017-ci il tarixli 543-VQD nömrəli Qanunu (https://e-qanun.az/framework/35345)
6. [Elektron resurs] / Azərbaycan Respublikası Azərbaycan Respublikası Hesablama Palatası, "Dövlət sosial müdafiə fondunun 2024-cü il üçün büdcə layihəsinə Rəy" [Müraciət tarixi: 31.05.2024]
7. "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/11566)
8. "Dövlət sosial müdafiə fondunun 2024-cü il büdcəsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 5 dekabr tarixli 1029-VIQ nömrəli Qanununun tətbiqi barədə Azərbaycan Respublikası Prezidentinin Fərmanı (https://e-qanun.az/framework/55876)
9. "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə Azərbaycan Respublikasının Qanunu (https://e-qanun.az/framework/41096)
10. Azərbaycan Respublikasının Vergi Məcəlləsi (https://e-qanun.az/framework/46948)


## SUMMARY


**Emin Alirzayev**


## CONCEPTUAL APPROACH TO THE SOCIAL PROTECTION SYSTEM IN THE CONTEXT OF SOCIAL FORECASTING (IN THE EXAMPLE OF THE REPUBLIC OF AZERBAIJAN)


In the article, as a mechanism for improving social protection in the environment of social relations in the Republic of Azerbaijan, the analysis of the conceptual bases and actual problems of economic forecasting at the level of organization and management of social protection is carried out. At the current stage of development of the social protection infrastructure, theoretically based opinions are put forward about the main problems and priority directions related to forecasting, and justified proposals are given about the solution mechanisms that are considered relevant.

**The purpose of the research** is to contribute to the strengthening of the theoretical and economic basis of forecasting as an important mechanism for improving the provision of financial resources, which is the basis of management in social protection for the purpose of the

development of the social protection system and the qualitative improvement of the social protection of the population.

**Applied importance.** The article is aimed at the formation of a conceptual vision for scientific research, as well as for making more progressive decisions calculated on the perspective at the management level, by identifying the main factors that can affect the effective use of financial resources in the directions considered as priorities.

The research object of the work is the regulation of the social protection system, the ultimate goal of which is to improve the social welfare of the population in Azerbaijan.

**Research methods.** Based on the content of the selected problem, empirical-theoretical understanding and research, analysis and synthesis, inductive and deductive approach, comparison, theoretical modeling, abstraction methods, and information from other various sources were used in the analysis.

**The originality and scientific novelty of the research** is the examination of the current problems of forecasting on the basis of the modern national social protection model formed in Azerbaijan and the provision of specific proposals in this direction.

**The results of the research work.** The problems analyzed within the framework of the work and the proposals given serve to strengthen the conceptual vision for making socio-economically effective decisions calculated in perspective.

***Key words:*** *social protection, social security, budget system, budget forecasting, extra-budgetary funds*

## РЕЗЮМЕ

**Эмин Алирзаев**

## КОНЦЕПТУАЛЬНЫЙ ПОДХОД К СИСТЕМЕ СОЦИАЛЬНОЙ ЗАЩИТЫ В КОНТЕКСТЕ СОЦИАЛЬНОГО ПРОГНОЗИРОВАНИЯ (НА ПРИМЕРЕ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ)

В статье в качестве механизма совершенствования социальной защиты в среде общественных отношений в Азербайджанской Республике проводится анализ концептуальных основ и актуальных проблем экономического прогнозирования на уровне организации и управления социальной защитой. На современном этапе развития инфраструктуры социальной защиты выдвигаются теоретически обоснованные мнения об основных проблемах и приоритетных направлениях, связанных с прогнозированием, а также даются обоснованные предложения о механизмах решения, которые считаются актуальными.

**Цель исследования** – способствовать укреплению теоретической и экономической основы прогнозирования как важного механизма совершенствования обеспечения финансовыми ресурсами, что является основой управления в сфере социальной защиты населения в целях развития системы социальной защиты населения. системы и качественное улучшение социальной защиты населения.

**Прикладное значение.** Статья направлена на формирование концептуального видения научных исследований, а также как приоритеты на принятие более прогрессивных, рассчитанных на перспективу решений на уровне управления, путем выявления основных факторов, способных повлиять на эффективное использование финансовых ресурсов по рассмотренным направлениям.

**Объектом исследования работы** - является регулирование системы социальной защиты, конечной целью которой является повышение социального благосостояния населения в Азербайджане.

**Методы исследования.** Исходя из содержания выбранной проблемы, в анализе использовались эмпирико-теоретическое осмысление и исследование, анализ и синтез, индуктивный и дедуктивный подход, сравнение, теоретическое моделирование, методы абстрагирования, а также информация из других различных источников.

**Оригинальность и научная новизна исследования** - заключается в рассмотрении актуальных проблем прогнозирования на основе сформировавшейся в Азербайджане современной национальной модели социальной защиты и предоставлении конкретных предложений в этом направлении.

**Результаты исследовательской работы**. Анализируемые в рамках работы проблемы и приведенные предложения служат укреплению концептуального видения для принятия рассчитанных на перспективу социально-экономически эффективных решений.

***Ключевые слова:*** *социальная защита, социальное обеспечение, бюджетная система, бюджетное прогнозирование, внебюджетные фонды*